


# AZƏRBAYCAN 2003-2023

## İNKİŞAF RƏQƏMLƏRDƏ









# AZƏRBAYCANI VƏ BÜTÖVLÜKDƏ REGİONU DƏYİŞƏN İYİRMİ İL






# TAMAMİLƏ BAŞQA ÖLKƏ

“Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir”. Bu, 2003-cü il oktyabrın 31-də, inauqurasiya günündə İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti postunda ilk rəsmi nitqində verdiyi bəyanatdır. Bu, onun tərəfindən xalqa verilən ən əsas vəddir, onun liderliyi illərində bütün başqa hədəflərin, vəzifələrin və islahatların ardıcıl düzüldüyü, bir-biri ilə bağlı olduğu əsas amildir. Məhz bunu – Azərbaycanın tarixində yeni mərhələnin başlanğıcı ilə əlamətdar olan, Qarabağda və Şərqi Zəngəzurda öz ərazilərinin tam azad edilməsi uğrunda müharibədə böyük Qələbəni haqlı olaraq İlham Əliyevin prezidentliyinin çox mühüm nailiyyəti hesab etmək olar.

Yekun olaraq, onun liderliyi dövründə əsas proqram sənədi, heç şübhəsiz, 2022-ci ilin noyabrında təsdiqlənmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” oldu. Bu Proqram çərçivəsində bir tərəfdən ölkə iqtisadiyyatı qarşısında yeni hədəflər və vəzifələr, digər tərəfdən isə artım və inkişaf üçün əlavə imkanlar açılır.

Bununla belə, makroiqtisadi sabitliyin və maliyyə dayanıqlılığının təməlini qoyan məhz dəqiq düşünülmüş və həmin dövr ərzində ardıcıl həyata keçirilmiş iqtisadi siyasət ölkənin regionda liderliyini şərtləndirdi, ərazi bütövlüyünün bərpası uğrunda diplomatik və hərbi qarşıdurmada mütləq üstünlüyü təmin etdi.

Prezident İlham Əliyevin islahatlar strategiyası miqyasına görə olduqca genişdir və təkcə iqtisadi fəaliyyətlə məhdudlaşmır, həm də mürəkkəb və sistemli xarakteri ilə diqqəti cəlb edir. Bu səbəbdən Azərbaycanın iqtisadi modelini əksər hallarda ölkənin inkişaf modeli kimi dəyərləndirirlər. İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan nəinki dünyanın ən dinamik iqtisadiyyatı kimi tanındı, həm də qlobal



miqyasda müasir dəyərlər çərçivəsində daha sürətlə dəyişən ölkə imicini qazandı.
Dünya təcrübəsində çox az ölkəni nümunə göstərmək olar ki, cəmi 30 illik müstəqillik tarixi ərzində belə genişmiqyaslı uğurlara imza atsın. Müstəqilliyinin ilk illərində Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və 1994-cü ildən həyata keçirilən neft strategiyası sayəsində Azərbaycanın iqtisadiyyatı böhranlı postsovet dönəmindən sonra bərpa yoluna yenicə başlayırdı.
2003-cü ildən isə ölkədə yeni sosial-iqtisadi inkişaf modelinə keçidə start verildi. Bu model çərçivəsində iqtisadiyyatın şaxələndirilməsi və rəqəmsallaşması, özəl sektorun rolunun gücləndirilməsi və investisiyaların cəlb olunması üçün əlverişli mühitin yaradılması, sosial problemlərin həlli üzrə çox sürətli addımlar atıldı. Prezident İlham Əliyevin yeni iqtisadi kursuna bütünlüklə strateji istiqamət verən ilk Proqram normativ-hüquqi aktı 2004-cü ilin fevralında "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nın qəbul edilməsi oldu. Həmçinin Azərbaycanda yoxsulluğun səviyyəsinin azaldılması üçün Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə yoxsulluğun real səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə ailə təsərrüfatları sahiblərinin illik anketləşdirilməsi tətbiq olundu, Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və sosial-iqtisadi inkişaf üzrə iki Dövlət Proqramı (2003-2005-ci və 2008-2015-ci illər üçün) qəbul edildi. Bunun nəticəsində son 20 il ərzində yoxsulluğun səviyyəsi təxminən 50 faizdən 5 faizədək azalıb.
Prezident İlham Əliyevin yeni iqtisadi kursu çərçivəsində vaxtında görülən bu və digər çoxsaylı tədbirlər sayəsində artıq 2004-cü ildə Azərbaycanda ÜDM (hələ "Azəri-Çıraq-Günəşli" yatağından böyük neftin ixracına başlanmazdan əvvəl) artaraq 10,2 faizə çatıb.
Artıq 2005-ci ildə Prezidentin apardığı unikal iqtisadi strategiya və Azərbaycan cəmiyyətinin həyatının bütün sahələrinin modernləşdirilməsi kursu sayəsində ölkə iqtisadiyyatı fenomenal inkişaf tempi – ÜDM-in 26,4 faiz artımını nümayiş etdirdi. 2006-cı ilin yekunlarına görə isə ÜDM 34,5 faiz artıb. Bu gün 2003-cü illə müqayisədə real ÜDM-



in həcmi 3,6 dəfə, nominal isə 18,7 dəfə artıb.
Bununla yanaşı, iqtisadiyyata yatırılan investisiyalar 4 dəfə artıb – ölkəyə müxtəlif sektorlardan 300 milyard dollardan artıq vəsait daxil olub. Bundan başqa, həmin dövr ərzində ölkəmizin əhalisinin gəlirləri 12 dəfə, strateji valyuta ehtiyatları isə 2003-cü illə müqayisədə 40 dəfədən çox artıb. Xarici borc 9 faizdən aşağı səviyyədədir, Azərbaycanın valyuta ehtiyatları xarici borcu 10 dəfə üstələyir. Göstərilən rəqəmlər Azərbaycanın iqtisadi inkişaf modelinin sabitliyindən xəbər verir və milli iqtisadiyyatın xarici şoklara adaptiv və adekvat reaksiyasının bariz nümunəsidir.
Bu illər ərzində əsas diqqət özəl sektorun möhkəmləndirilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına yetirilib. Bu çərçivədə sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması istiqamətində mühüm addımlar atılıb. Təkcə sahibkarlara imtiyazlı şərtlərlə ayrılan kreditlərin həcmi 2 milyard manatı ötüb.
Bu gün Azərbaycan regionun aparıcı iqtisadi gücünə çevrilib. Azərbaycanın təşəbbüskarı olduğu və tərəfdaşları ilə birgə həyata keçirdiyi bir sıra irimiqyaslı layihələr təkcə bizim deyil, qonşu regionların da inkişafına mühüm töhfəsini verir. Bu layihələr arasında Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatında başlıca rol oynamaq qabiliyyətinə malik Cənub Qaz Dəhlizi kimi nəhəng layihə yer alır.
Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində məhz son 20 il ərzində Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) boru kəmərləri tikilib istismara verilib. Bundan başqa iki nəqliyyat meqalayihəsini – Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisini və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi çərçivəsində işləri xatırlatmaq lazımdır.
Sənayeləşmə prosesi uğurla davam edir. Son vaxtlar sənaye parklarının fəaliyyətə başlaması geniş vüsət alıb. Hazırda bu proses bir neçə şəhərdə gedir. Sənaye parklarında 67 rezident mövcuddur, onlardan 40-ı artıq fəaliyyət göstərir. Aqroparkların yaradılmasını çox müsbət amil kimi dəyərləndirmək olar: onların ümumi sayının 51 olacağı nəzərdə tutulur, bunların da 17-si artıq fəaliyyətdədir. Yerdə qalan aqroparkların istifadəyə verilməsi nəticəsində regionlarda yeni iş yerləri yaradılacaq,



eləcə də kənd təsərrüfatı məhsullarımızın istehsalı və ixracı daha da artacaq.
Azərbaycan iqtisadiyyatı özü-özünü təmin edir və kənardan dəstəyə ehtiyacı yoxdur. Bundan başqa, Azərbaycan qısa müddət ərzində borcalan dövlətdən regional və dünya səviyyəli donor ölkəyə çevrilib. Xarici İşlər Nazirliyinin təsis etdiyi Beynəlxalq İnkişafa Yardım Agentliyi tərəfindən 2011-ci ildən bəri 100-dən artıq ölkəyə yardım göstərilib. 2019-cu ildə isə Beynəlxalq İnkişaf Assosiasiyasının (IDA) 19-cu iclasında respublikaya donor ölkə statusu verilib ki, bu da Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasının və onun etibarlı qlobal tərəfdaşa çevrildiyinin daha bir göstəricisidir. Yeri gəlmişkən, elə həmin il respublika postsovet məkanında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının yeganə tamhüquqlu iştirakçısı olub. Digər tərəfdən, Azərbaycan investisiyaların idxalçısından həm özəl, həm də dövlət investisiyalarını ixrac edən ölkəyə çevrilib. Belə ki, Rusiya, Türkiyə, BƏƏ, Ukrayna, Rumıniya, Gürcüstan, Yunanıstan, Qazaxıstan, Özbəkistan, Monteneqro, Serbiya, İsveçrədə Azərbaycan biznesi ilə açılan yüzlərlə müəssisə və şirkətdə on minlərlə xarici vətəndaş çalışır.
Azərbaycan BMT-nin 2022-ci ildə təqdim etdiyi “Dayanıqlı inkişaf haqqında hesabat”da Dayanıqlı İnkişaf Məqsədlərinin icrası indeksi üzrə regionda ən yaxşı nəticə göstərib və 163 ölkə arasında 50-ci yeri tutub.















## 2003-CÜ İLDƏN BƏRİ - İLHAM ƏLİYEV İLK DƏFƏ PREZİDENT SEÇİLDİKDƏN SONRA AZƏRBAYCANDA İNQİLABİ DƏYİŞİKLİKLƏRİN MİQYASINI DAHA AYDIN GÖRMƏK OLAR, MÜQAYİSƏLİ MƏLUMATLARDA HƏMİN DÖVR ÜÇÜN ƏSAS MAKROİQTİSADİ VƏ DİGƏR GÖSTƏRİCİLƏRİ İZLƏMƏK MÜMKÜNDÜR










SHUSHA
GLOBAL
MEDIA
FORUM
DIA IN THE ERA OF THE 4TH INDUSTRIAL
JULY 21-23, 2023 | SHUSHA, AZERBAIJAN




azercosmos














YENİ AZƏRBAYCAN PARTİYASI
30 il



# Regionların inkişafı
# əsas prioritetlərdən biridir

İlham Əliyev dövlət başçısı seçildikdən dərhal sonra bütün regionların inkişafını strateji məqsəd kimi müəyyənləşdirdi. Belə ki, onun tərəfindən təsdiqlənən ümummilli əhəmiyyətli sistemli proqramlardan birincisi 2004-cü ilin fevralında start verilən "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" oldu. Prezidentin ötən illər ərzində Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı üzrə dörd Dövlət Proqramı (2004-2008-ci, 2009-2013-cü, 2014-2018-ci, 2019-2023-cü illər) qəbul olunub. Bu proqramlar çərçivəsində 100 milyard manatdan çox investisiya yatırılıb. Həmin proqramlar şəhərlərin, qəsəbələrin və kəndlərin simasını kökündən dəyişib, regionların potensialının artırılması, infrastrukturun, kommunal xidmətlərin, investisiya və biznes mühitinin yaxşılaşdırılması, eləcə də əhalinin rifah halının yüksəldilməsi üçün imkanlar açıb.






# REGİONLARIN İNKİŞAFI

KEÇİRİLƏN TƏDBİRLƏRİN SAYI
**Cəmi 2515**

- **505** — işğaldan azad olunan rayonlarda
- **2010** — digər şəhər və rayonlarda

| açılış mərasimləri | tanışlıq | təməlqoyma | təqdimat | baxış | görüşlər, ziyarət və digər tədbirlər |
|---|---|---|---|---|---|
| 1225 | 711 | 231 | 15 | 74 | 259 |

Bütün bu illər ərzində Prezident həmin Dövlət proqramlarının icrasının gedişatına və regionların inkişafı üzrə digər məsələlərin həllinə şəxsən nəzarət edib, ölkənin şəhər və rayonlarına çoxsaylı səfərlər həyata keçirib.



Prezident İlham Əliyev 2021-ci il fevralın 2-də "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncam imzaladı. Bu sənədin qəbulu iqtisadi siyasətin gələcək təkmilləşdirmə və tərəqqiyə, müasir reallıqlara uyğunlaşmaqla bütün sahələrdə dinamik inkişafa istiqamətləndiyini bir daha vurğuladı. Strategiyaya uyğun olaraq, qarşıdakı onillikdə beş Milli Prioritet həyata keçirilməlidir:

- İqtisadiyyatın dayanıqlı artımının və rəqabətqabiliyyətliliyinin təmin edilməsi;
- dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin yaradılması;
- rəqabətqabiliyyətli insan kapitalı və müasir innovasiyalar;
- işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
- təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Göstərilən birinci prioritetlər çərçivəsində ölkənin dayanıqlı inkişafı üçün iqtisadi artımın tarazlaşdırılmasının zəruriliyi qeyd olunur. Bu prioritetin səmərəli icrası üçün aşağıdakı iki məqsədə nail olmaq lazımdır:

- davamlı və yüksək iqtisadi artım;
- daxili və xarici təsirlərə dayanıqlılıq.

Fasiləsiz və yüksək iqtisadi artım dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət etməli, hər bir vətəndaş bu inkişafı öz həyatında hiss etməlidir. İnsanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq, iqtisadi imkanlara çıxışı bərabər və ədalətli olmalıdır ki, bu da növbəti üç məqsəd əsasında uğurla həyata keçirilməli olan ikinci prioritet çərçivəsində müəyyənləşdirilməlidir.

- inkişafdan hər bir vətəndaşın bəhrələnməsi;
- yüksək və ədalətli sosial müdafiə, inklüziv cəmiyyət;
- paytaxt və regionların tarazlı inkişafı.

# MİLLİ PRİORİTETLƏR

Gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün əsas şərtlər müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığıdır. Bu prioritetin uğurla reallaşdırılması üçün aşağıdakı üç məqsədə nail olunmalıdır:

- XXI əsrin tələblərinə uyğun təhsil;
- yaradıcı və innovativ cəmiyyət;
- vətəndaşların sağlam həyat tərzi.

İşğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. İşğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını təmin etmək və dördüncü prioriteti uğurla reallaşdırmaq üçün aşağıdakı iki məqsədə nail olunmalıdır:

- dayanıqlı məskunlaşma;
- iqtisadi fəaliyyətə reinteqrasiya.

Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Beşinci prioritet çərçivəsində strateji dövrdə aşağıdakı iki məqsədin səmərəli həyata keçirilməsinə nail olunmalıdır:

- yaşıl enerji məkanı.
- yüksəkkeyfiyyətli ekoloji mühit;

## ölkə ÜDM-i

| 2003 | 2022 |
| --- | --- |
| 7,1 mlrd manat | 133,8 mlrd manat |

## qeyri-neft sektorunda ÜDM

| 2003 | 2022 |
| --- | --- |
| 4,4 mlrd manat | 69,8 mlrd manat |



# MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR






## adambaşına düşən ÜDM




## əhalinin yoxsulluq səviyyəsi






# MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

## investisiyaların həcmi




2003-2022-ci illərdə ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi 310,4 milyard dollar təşkil edib. Bu vəsaitin 154,1 milyard dolları xarici investisiyaların payına düşüb. 2022-ci ildə Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların ümumi həcmi (bütün mənbələrdən) rekord göstəriciyə - 29,135 milyard manata çatıb. Bu vəsaitin 14,9 milyard manatını (8,8 milyard dollar) xarici investisiyalar təşkil edib.






Şuşa
HOTEL







# MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

## Mərkəzi Bankın valyuta ehtiyatları




## Neft Fondunun aktivləri






## strateji valyuta ehtiyatları




## xarici ticarət dövriyyəsi






# MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR






Azərbaycan Prezidenti vəzifəsinə seçiləndən sonra İlham Əliyevin hökumət qarşısına qoyduğu əsas vəzifələrdən biri silah-sursatın və hərbi texnikanın idxalında asılılığı minimuma endirmək oldu. Bu məqsədlə yeni istehsal müəssisələri tikildi, əvvəllər fəaliyyət göstərənlərdə texniki yenidənqurma işləri həyata keçirildi. 2005-ci il dekabrın 16-da dövlət başçısının Sərəncamı ilə Müdafiə Sənayesi Nazirliyi (MSN) yaradıldı.

Qısa zaman kəsiyində MSN atıcı silahlar, döyüş sursatları, artilleriya qurğularının kiçik seriyaları, müxtəlif kalibrli döyüş sursatları, mühəndislik, döyüş və təlim qurğuları, mühəndislik xidməti və kəşfiyyat üçün xüsusi vasitələrin istehsalını mənimsəmiş, zirehli transportyorun (ZTR) yığılmasına başlanılmışdır.

2009-cu ildə Azərbaycan silah hazırlayanları ilk dəfə olaraq öz məhsullarını xaricdəki  beynəlxalq sahəvi sərgilərə aparıb, 2014-cü ildə isə artıq Bakının özündə Birinci Azərbaycan Beynəlxalq Müdafiə Sənayesi Sərgisi - "ADEX" təşkil olunub. 2020-ci ildə MSN-in müəssisələri artıq 2000-dən çox adda hərbi təyinatlı məmulatlar - snayper tüfənglərindən, artilleriya mərmilərindən, təyyarə bombalarından tutmuş zirehli transportyorlar, reaktiv yaylım atəş sistemi (RYAS) və sairədək istehsal ediblər. MSN məhsullarına pilotsuz uçuş aparatları (PUA), o cümlədən məşhur "İti qovan" PUA-ları aiddir. Bu uçuş aparatı yüksək dəqiqliklə və yüksək sürətlə hərəkət etməklə hədəfi dörd kilometr hündürlükdən məhv etməyə qadirdir.

Bundan başqa, nazirliyin müəssisələri ZTR piyada döyüş maşınlarının və ZKGM zirehli kəşfiyyat-gözətçi maşınlarının modernləşdirilməsini, eləcə də onlar üçün mərmilərin istehsalını həyata keçirir. Bu mərmilər, həmçinin zirehli texnikadakı PUA-da istifadə olunur.

Hazırda Azərbaycan dünyanın 30 ölkəsinə hərbi məhsullar tədarük etməklə beynəlxalq silah ticarətində tanınan oyunçudur.

2023-cü ildə müdafiə sənayesinin müasir tələbata uyğunlaşması və



# MÜDAFİƏ SƏNAYESİ

ordunun yerli istehsal hesabına hərbi-texniki təchizatla təmin olunması üçün Prezident İlham Əliyevin Fərmanı ilə “Azərsilah” Müdafiə Sənayesi Holdinqi” Qapalı Səhmdar Cəmiyyəti yaradılıb. Müdafiə Sənayesi Nazirliyinin “İqlim” və “Sənayecihaz” Elmi-İstehsalat müəssisələri holdinqin tabeliyinə verilib.

## Dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri










dövlət büdcəsinin gəlirləri
30,7 mlrd manat
1,2 mlrd manat
2003
2022
dövlət büdcəsinin xərcləri
32,1 mlrd manat
1,2 mlrd manat
2003
2022



# DÖVLƏT BÜDCƏSİ






## əməkhaqlarının miqdarı






# SOSİAL SİYASƏT

## pensiyaların miqdarı

**orta aylıq əmək pensiyası**

| 2003 | 2023 *(proqnoz)* |
|---|---|
| 23,8 manat | 437 manat |

**minimum pensiya**

| 2003 | 2023 |
|---|---|
| 20 manat | 280 manat |



## əhalinin adambaşına düşən nominal pul gəlirləri




## ölkə banklarında əhalinin əmanətlərinin həcmi






# SOSİAL SİYASƏT

## İstismara verilən yaşayış sahəsi




## Mənzil fondunun ümumi sahəsi




## DOST mərkəzləri

Azərbaycanda həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biri müxtəlif dövlət xidmətlərinə əlçatanlığın təmin edilməsi və vətəndaşlarla məmurlar arasındakı münasibətlərdə şəffaflığın artırılmasıdır. Bu məqsədlə 2019-cu ilin mayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyətə başlayan DOST (Davamlı və Operativ Sosial Təminat) Agentliyi yaradılıb. Hazırda 7 DOST mərkəzi fəaliyyət göstərir, 2025-ci ilə qədər onların sayının 17-yə çatdırılması, 55 DOST filialının açılması və beləliklə, bütün ölkə üzrə xidmətlərin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur.

DOST mərkəzləri vasitəsilə tam şəffaflıq və vətəndaş məmnunluğu əsasında "bir pəncərə" prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 15 istiqamət üzrə 159 xidmət göstərilir. 2023-cü il dekabrın 1-nə olan məlumata görə, bu mərkəzlərdə 1,9 milyon nəfərə xidmət göstərilib. Vətəndaşların xidmətlərdən məmnunluq dərəcəsi 98,1 faiz təşkil edir.



Hazırda Azərbaycanın neft hasilatının böyük hissəsi "Azəri-Çıraq-Günəşli" (AÇG) blokunun payına düşür. Ümumiyyətlə, AÇG blokunun işlənilməsinə başlanıldığı bütün dövr ərzində ümumi neft hasilatı 4,3 milyard bareli ötüb. Blokun işə salınması layihəsinin həyata keçirilməsindən Azərbaycanın xalis mənfəəti 2001-ci ildən bəri 171 milyard dollar təşkil edib. Layihənin dəyişməz operatoru - Britaniyanın BP şirkəti və onun tərəfdaşları tərəfindən Azərbaycandakı, Gürcüstandakı və Türkiyədəki layihələrin icrasına 108 milyard dollar sərmayə qoyulub ki, bunun da 30 faizi BP şirkətinin payına düşür.






Əsası Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulmuş neft strategiyası təkcə neft hasilatının və ixracının rekord artımı ilə deyil, həm də tarixi əhəmiyyətə malik əlamətdar hadisələrlə yadda qalmaqla, son 20 il ərzində inkişafının zirvəsinə yüksəlib.



# NEFT VƏ QAZ

- 2005-ci il mayın 25-də Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin açılış mərasimi keçirilib, 2006-cı ildə Azərbaycan neftinin Türkiyənin Ceyhan limanından nəqlinə başlanılıb. Bu gün BTC kəməri vasitəsilə, o cümlədən Qazaxıstan və Türkmənistan nefti dünya bazarlarına çıxarılır;

- 2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinsulu hissəsinin birgə işlənilməsi və Hasilatın Pay Bölgüsü haqqında yeni “Əsrin müqaviləsi” imzalanıb. BP müddəti 2049-cu ilə qədər uzadılan müqavilə çərçivəsində layihənin operatoru kimi fəaliyyətini davam etdirir, SOCAR-ın payı 11 faizdən 25 faizə yüksəlir, mənfəət neftinin 75 faizi isə Azərbaycana qalır;

- 2019-cu ildə AÇG üzrə əlavə hasilat platformasının tikintisi barədə razılıq əldə edilib;

- 2020-ci ildə neft ehtiyatı 60 milyon tondan çox qiymətləndirilən “Qarabağ” yatağı müstəqilliyimiz dövründə kəşf edilmiş ilk neft yatağı kimi tarixə düşüb;

- 2021-ci ildə Azərbaycan ilə Türkmənistan arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsinə dair qarşılıqlı Anlaşma Memorandumu imzalanıb;

2016-cı ildə Azərbaycan Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) ilə əməkdaşlığa başlayıb və həmin il dekabrın 10-dan indiyədək OPEC+ birliyinin üzvüdür.



## qaz hasilatı




## qaz ixracı




Əgər 2003-cü ildə Azərbaycan 4 milyard kubmetr həcmində qaz idxal edirdisə, bu gün ölkə bir-birinin ardınca "mavi yanacaq" tədarükü ilə bağlı uzunmüddətli müqavilələr imzalayaraq, Avropaya qazın böyük və etibarlı ixracatçısı kimi çıxış edir.

Məhz son 20 il ərzində Azərbaycanda qaz hasilatı sahəsində böyük dəyişikliklər baş verib və bunun başlanğıcı 1996-cı ildə "Şahdəniz" yatağının işlənilməsinə dair müqavilənin imzalanması ilə qoyulub.

## neft hasilatı




## neft ixracı



# NEFT VƏ QAZ

Eyni zamanda, Xəzərin təxmin edilən ehtiyatları 1,2 trilyon kubmetr həcmində qiymətləndirilən bu ən böyük yatağında hasilat 2006-cı ilin dekabrında başlayıb.
2013-cü il dekabrın 17-də “Şahdəniz-2” layihəsi üzrə yekun investisiya qərarının imzalanması mərasimi keçirilib. Hazırda “Şahdəniz” yatağından qaz və kondensat hasilatı Mərhələ-1 çərçivəsində “Alpha” platformasından və Mərhələ-2 çərçivəsində “Bravo” platformasından həyata keçirilir. Bu günədək yataqdan ümumilikdə 200 milyard kubmetrdən çox qaz hasil olunub.
Dörd ildən sonra isə “Şahdəniz” yatağının işlənilməsi üzrə Mərhələ-3 fazasının işə salınacağı güman edilir.
Azərbaycanda “Şahdəniz”dən sonra istifadəyə verilən ikinci böyük qaz yatağı “Abşeron” olub: onun ehtiyatları 350-360 milyard kubmetr qaz və 100 milyon ton kondensat həcmində qiymətləndirilir. 2023-cü ilin iyul ayında istismara verilən “Abşeron” yatağından 750 milyon kubmetrdən çox qaz hasil olunacaq.
Azərbaycanın qaz balansını daha iki perspektivli yataq - 200 milyard kubmetr ehtiyatı olan “Ümid” yatağı (artıq işlənilir) və 400 milyard kubmetr qaz ehtiyatı olan “Babək” yatağı tamamlayır. Həmçinin “Şəfəq-Asiman” qaz yatağında və “AÇG Gələcək qaz” layihəsi üzrə işlər aparılır. Ümumilikdə bu gün Azərbaycanın hasil olunan qaz ehtiyatları 933 milyard kubmetr, təsdiqlənmiş qaz ehtiyatları 1,7 trilyon kubmetr, proqnozlaşdırılan qaz ehtiyatları isə təxminən 4 trilyon kubmetr həcmində qiymətləndirilir. Azərbaycanın təsdiqlənmiş təbii qaz ehtiyatları 2,6 trilyon kubmetr təşkil edir.

## Cənub Qaz Dəhlizi

Azərbaycan dəyəri 33 milyard dollar, uzunluğu isə 3500 kilometr olan strateji əhəmiyyətə malik nəhəng “Cənub Qaz Dəhlizi” layihəsinin təşəbbüskarı və səhmdarı kimi çıxış edib. 2014-cü il sentyabrın 20-də - “Əsrin müqaviləsi”nin imzalanmasının iyirminci ildönümü günündə Səngəçalda bu möhtəşəm layihənin təməlqoyma mərasimi keçirilib.



Bu təşəbbüsə ilk olaraq Türkiyə və Gürcüstan, sonrakı mərhələdə isə İtaliya, Yunanıstan, Bolqarıstan və Albaniya qoşulub. Hazırda yeni və potensial tərəfdaşların siyahısına Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro da daxildir.

- 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum (Cənubi Qafqaz Boru Kəməri) qaz kəməri istifadəyə verilib, "Şahdəniz" yatağının işlənilməsinin birinci mərhələsi çərçivəsində hasil olunan qaz Gürcüstan, Türkiyə və Yunanıstana ixrac edilməyə başlayıb;

- 2012-ci ildə TANAP (Trans-Anadolu qaz kəməri) layihəsi üzrə saziş imzalanıb;

- 2013-cü ildə "Şahdəniz" konsorsiumu TANAP qaz kəməri ilə nəql olunan Azərbaycan qazının Avropaya çatdırılması məqsədilə Türkiyənin cənub sərhədini İtaliya ilə birləşdirən TAP (Trans-Adriatik qaz kəməri) layihəsini seçib və boru kəmərinin tikintisi 2020-ci ildə başa çatıb;

- 2015-ci ildən etibarən hər il Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin iclasları təşkil olunur;

- 2018-ci ildə TANAP-ın rəsmi açılış mərasimi keçirilib və həmin il iyunun 30-dan etibarən "Şahdəniz-2" çərçivəsində kommersiya məqsədli qazın Türkiyəyə nəql edilməsinə başlanılıb;

- 2020-ci ildə TAP boru kəməri ilə təbii qazın kommersiya məqsədilə nəqlinə başlanılıb və indiyədək Avropa ölkələrinə ümumilikdə 31 milyard kubmetrdən çox qaz nəql edilib. Bu gün Avropada Azərbaycan qazını İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Şimali Makedoniya satın alır;

- 2022-ci ildə Azərbaycan ilə Aİ arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Bu sənədə əsasən, Azərbaycan təbii qazının ixracı 2027-ci ilin sonuna qədər iki dəfə artırılaraq 20 milyard kubmetrə çatdırılacaq ki, bu da yeni ölkələrin qaz təchizatı ilə əhatə olunmasına imkan verəcək;



# NEFT VƏ QAZ

- 2023-cü il aprelin 25-də “Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiya və SOCAR arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu” imzalanıb. “Həmrəylik halqası” adlandırılan bu təşəbbüs Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş qazötürücü sistemləri şəbəkəsi vasitəsilə Avropaya əlavə qaz tədarükü üzrə əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaradır;

- 2023-cü il sentyabrın 25-də daha bir mühüm boru kəməri layihəsinin - İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasimi keçirilib. Layihənin məqsədi muxtar respublikaya qaz tədarükünün şaxələndirilməsi və onun bir təchizatçıdan asılılığının azaldılmasından ibarətdir.

## SOCAR-ın Türkiyəyə investisiyaları

2008-ci ildə “SOCAR Turkey Enerji A.Ş.” (“SOCAR Turkey”) “Petkim Petrokimya Holding”in səhmlərinin 51 faizini alıb. Kompleksin inkişaf etdirilməsi və STAR Neft Emalı Zavodu (NEZ), TANAP qaz kəməri, “Petkim RES” külək elektrik stansiyası və Egey dənizi regionunda ən böyük konteyner terminalı olan “SOCAR Terminal”ın inşa edilməsi kimi genişmiqyaslı layihələrin həyata keçirilməsi bu şirkəti Türkiyənin ən böyük xarici investoruna çevirib. Fəaliyyət göstərdiyi 15 il ərzində şirkətimizin Türkiyə iqtisadiyyatına yatırdığı sərmayənin ümumi həcmi təxminən 18 milyard dollar təşkil edib.

2018-ci il oktyabrın 19-da Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda SOCAR-ın maliyyələşdirdiyi “Star Oil” neft emalı zavodunun açılış mərasimi keçirilib. Hazırda ümumi investisiya dəyəri təxminən 7 milyard dollar olan “Star” neft emalı zavodu ildə 12 milyon tona qədər xam neft emal edir ki, bu da Türkiyənin neft məhsullarına olan tələbatının təxminən 19,5 faizini ödəyir.



Əgər 2003-cü ildə Azərbaycan elektrik enerjisi idxal edir və onun tədarükçülərindən asılı idisə, bu gün ölkə həmin resursların sabit təchizatçısına çevrilib, istehsalın və ixracın həcmini ildən-ilə artırır. Son 20 ildə Azərbaycanda 34 elektrik stansiyası tikilib və onların generasiya gücü təxminən 3400 meqavata bərabərdir. 2022-ci ildə Azərbaycandan elektrik enerjisinin ixracının həcmi cəmi 3 milyard kilovat-saat təşkil edirdisə, 2023-cü ildə bu həcm təkcə birinci yarımillikdə istehsal olunub.

## elektrik enerjisi istehsalı






# ELEKTRİK ENERJİSİ

İşğaldan azad olunmuş ərazilərdə böyük hidropotensial mövcuddur. Hazırda həmin ərazilərdə 164,8 meqavat gücündə 20 stansiya istismar olunur. 104,8 meqavat gücündə 12 stansiyada tikinti-quraşdırma işləri davam edir. Bunun nəticəsində stansiyaların sayı 32, onların ümumi gücü isə 269,6 meqavata çatacaq. İl ərzində 754 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq, 167 milyon kubmetr qaza qənaət ediləcək, tullantıların həcmi isə 334 min ton azalacaq. Ümumilikdə azad olunmuş ərazilərdə hidroenergetikanın gücünü 500 meqavata qədər artırmaq nəzərdə tutulur.








# Bərpaolunan mənbələrin potensialı

Azərbaycanın ənənəvi energetika sahəsində beynəlxalq əhəmiyyət daşıyan iri layihələrin reallaşdırılması üzrə uğurlu praktika "Yaşıl" elektrik enerjisi istehsalı sektorunda inamla davam etdirilir, onun gələcəkdə Avropaya ixracı nəzərdə tutulur. Bərpaolunan enerji mənbələrinin texniki potensialı ölkəmizdə quruda 135 qiqavat, Xəzər dənizinin Azərbaycanın sektorunda külək enerjisinin potensialı isə 157 qiqavat qiymətləndirilir. Bərpaolunan enerji mənbələrinin quruda iqtisadi potensialı 27 qiqavatdır, bunun 23 qiqavatını günəş enerjisi, 1 qiqavata yaxınını isə bioenerji və dağ çaylarının enerjisi təşkil edir. Gücü 240 meqavat olan külək enerjisi və gücü 230 meqavat olan günəş enerjisi sahələrində "ACWA Power" (Səudiyyə Ərəbistanı) və "Masdar" (BƏƏ) şirkətlərinin həyata keçirdikləri pilot layihələrlə Azərbaycanda 2020-ci ildə əsası qoyulan "yaşıl" enerjinin inkişafı qısa müddətdə geniş vüsət alıb. Bunlarla yanaşı, BP, "Fortescue Future Industries", "Chine Gezhouba Group Overseas İnvestment", "Total Energies", "Nobel Energy", "A-Z Czech Engineering" şirkətləri ilə ümumi gücü 28 qiqavat olan layihələrin reallaşdırılması üzrə əməkdaşlığa dair sənədlər imzalanıb. Gücü 230 meqavat olan "Qaradağ" Elektrik Stansiyası istifadəyə verilib ki, bu da 262 milyon dollar məbləğində xarici investisiyalar hesabına ölkəmizdə inşa edilən birinci stansiyadır. Bu stansiya sayəsində Azərbaycanın enerji sisteminə əlavə 500 milyon kilovat-saat "yaşıl" enerji daxil olacaq. O cümlədən "Masdar" ilə sazişlər çərçivəsində bərpaolunan enerji ehtiyat-larından 10 qiqavat gücündə əlavə enerjinin dövriyyəyə daxil edilməsi planlaşdırılır. "ACWA Power" ilə enerjinin saxlanılmasının akkumulyator sistemi və 200 meqavat gücündə külək elektrik stansiyaları layihələri (BESS) üçün Yol xəritəsi imzalanıb. Naxçıvanda "Nobel Energy", "Total Energies", "A-Z Czech Engineering" şirkətləri tərəfindən ümumi gücü 1150 meqavat olan günəş elektrik stansiyalarının yaradılması nəzərdə tutulur.

2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası,



# «YAŞIL» ENERJİ




Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl" enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu Saziş çərçivəsində Azərbaycanda istehsal olunan "yaşıl" enerjinin ixracının Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniyaya, sonra isə Macarıstan və Avropanın qalan hissəsinə nəqlinin həyata keçirilməsi üzrə iş aparılır. Həmçinin Azərbaycanın Naxçıvan Muxtar Respublikasından Türkiyəyə gələcəkdə 1 qiqavat həcmində "yaşıl" enerjinin ixracı planlaşdırılır, bununla bağlı ötən ilin sentyabrında müvafiq memorandum imzalanıb. 2021-ci il mayın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl" enerji zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamına uyğun olaraq Yaponiyanın "TEPSCO" şirkəti ilə əməkdaşlıq çərçivəsində konseptual sənəd işlənərək hazırlanıb. Azərbaycanın işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur ərazilərində 170 meqavat gücündə hidroelektrik stansiyalar istismara verilib.




AZERBAIJAN
COP29 HOST



## COP29 Konfransı qlobal hərəkata böyük töhfədir

2024-cü ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsinə dair yekdil qərar Azərbaycanın iqlim problemləri ilə qlobal mübarizədə fəal iştirakına beynəlxalq ictimaiyyət tərəfindən verilən böyük qiymətin təzahürü oldu. Prezident İlham Əliyev bu qərarı şərh edərkən deyib: "Yaşıl" enerji növlərinin yaradılması və onların dünya bazarlarına nəqli hazırda bizim energetika siyasətimizin prioritetidir". Beləliklə, Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinin dəstəklənməsinə, müasir dövrün ən aktual problemlərinin həllinə mühüm töhfə verəcək, dünya ictimaiyyətinin diqqətini regional ekoloji problemlərə cəlb edəcək.

## 2024-cü il Yaşıl dünya naminə həmrəylik ilidir

İqlim dəyişiklikləri ilə qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Prezident İlham Əliyevin Sərəncamına əsasən 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. İqlim dəyişikliyi ilə mübarizə üzrə səmərəli fəaliyyət bütün maraqlı tərəflərin iştirakını tələb edir. Bunlar gənclər, qeyri-hökumət təsisatları və ya iri maliyyə qurumlarının nümayəndələri də ola bilər. İqlim dəyişikliyi ilə mübarizə prosesində vətəndaş cəmiyyətinin hərtərəfli iştirakının təmin edilməsi vacibdir. COP29 Konfransı ilə yanaşı, il ərzində bu problemlərə həsr olunmuş bir çox tədbirlərin keçirilməsi şübhəsiz ki, həmin hədəflərə nail olunmasına misilsiz töhfə verəcək.



Uğurlu institusional struktur islahatları nəticəsində özəl sektorun ÜDM-də payı 2022-ci ildə 86,5 faizə yüksəlib. Bununla yanaşı, təsərrüfat subyektlərinin 99 faizini kiçik və orta müəssisələr təşkil edir. Neft və qazla əlaqəli olmayan investisiyalar özəl sektorun inkişafının əsas hərəkətverici qüvvəsi olub. Prezident İlham Əliyevin siyasi iradəsinə əsasən sahibkarlıq subyektlərində yoxlamaların dayandırılması müddəti 2025-ci ilə qədər uzadılıb, lisenziya tələb edən fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı isə 330-dan 86-ya endirilib. Lisenziyalar üzrə dövlət rüsumlarının miqdarı təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə azaldılıb. Lisenziya verən dövlət orqanlarının sayı 23-dən 4-də, lisenziyaların verilməsi müddəti isə 15 iş günündən 10-a endirilib. 2023-cü il yanvarın 1-nə qədər olan məlumata görə, 473 təsərrüfat subyektinə investisiyaların stimullaşdırılması üzrə 571 sənəd təqdim olunub. 2022-ci ildə görülən bütün tədbirlərin nəticəsində Azərbaycandan qeyri-neft ixracı rekord məbləğ – 3 milyard dollar təşkil edib.

## qeyri-neft ixracı






# QEYRİ-NEFT SEKTORU

## Ələt Azad İqtisadi Zonası

Azərbaycanda ilk azad iqtisadi zona (AİZ) Xəzər regionunun ən iri dəniz sahili ərazisində - Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaxınlığında yaradılıb. 2021-ci il iyulun 1-də yaradılan AİZ-in ümumi sahəsi 850 hektardır. Bu zona ixracyönümlü istehsal-logistika qovşağı qismində formalaşır. Beynəlxalq səviyyəli avtomobil yollarına, həmçinin Bakı-Tbilisi-Qars dəmir yolu magistralına çıxışları var. Bu yollar Ələtdə kəsişir və yüklərin Orta Dəhliz və Şimal-Cənub marşrutları üzrə quru və dəniz vasitəsilə aşırılması üçün rahat, sürətli və yüksək rəqabətli nəqliyyat-logistika qovşağı rolunu oynayır.

AİZ-in məqsədi Xəzər regionundan, həmçinin Avropa İttifaqı, Cənub-Şərqi Asiya, Türkiyə və Yaxın Şərqdən yükdaşıyıcıların və investorların cəlb edilməsindən ibarətdir. 2023-cü ilin iyununda Ələt AİZ-in birinci mərhələsi istifadəyə verilib.







## yükdaşımaların ümumi həcmi

2003: 110 mln ton

2022: 218,7 mln ton

## yükdaşımalardan gəlirlər

2003: 360 mln manat

2022: 8 mlrd 634 mln manat

## sərnişindaşımanın ümumi həcmi

2003: 921 mln nəfər

2022: 1,6 mlrd nəfər



# NƏQLİYYAT

## hər 100 ailə təsərrüfatına düşən avtomobillərin sayı

| 2003 | 2022 |
|---|---|
| 22 | 58 |

## ölkədə avtomobillərin sayı

| 2003 | 2022 |
|---|---|
| 511 min | 1 mln 645 min |

## Avtomobil yolu infrastrukturu

2003-2022-ci illərdə Azərbaycanda 20 min kilometr uzunluğunda yeni yollar tikilib, bərpa olunub və təmir edilib, 460 yeni körpü, yolötürücü və avtomobil tuneli salınıb, onların 95-i təmir edilib.






# Dəmir yolu nəqliyyatı

2015-ci ildə “Azərbaycan Dəmir Yolları” QSC-nin (ADY) İsveçrənin “Stadler Rail Group” şirkətindən sifariş etdiyi ikimərtəbəli KISS elektrik qatarları Azərbaycana gətirilib. Bu qatarlar 2015-ci il sentyabrın 12-də Bakı-Sumqayıt marşrutu ilə hərəkətə buraxılıb, bu gün artıq 9 KISS elektrik qatarı istismardadır.

## dəmir yolu nəqliyyatı ilə daşımalardan gəlirlər








# NƏQLİYYAT





2019-cu il martın 29-da Bakıya “Stadler” şirkətinin istehsalı olan 10 vaqondan ibarət sərnişin qatarı gətirilib, 2020-ci ilin sentyabrında Azərbaycana bu şirkətin istehsal etdiyi daha 10 vaqon idxal olunub.

Həmçinin Azərbaycana ikisistemli (həm sabit, həm də dəyişən cərəyanla) 10 ədəd sərnişin lokomotivi gətirilib. Onlar ADY ilə ALSTOM arasında bağlanan müqaviləyə əsasən satın alınıb.

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində 8,3 kilometr uzunluğunda Astara (Azərbaycan) - Astara (İran) dəmir yolu tikilib, həmçinin Astaraçay çayı üzərində 82,5 metr uzunluğunda körpü salınıb. Bu, ilk dəfə Azərbaycan ilə İranın dəmir yolu sistemlərini birləşdirməyə imkan verib, ölkəmizin tranzit potensialını xeyli artırıb.



# Mülki aviasiya

Ötən dövr ərzində “Azərbaycan Hava Yolları” QSC-nin bütün təyyarə parkı yenilənib və “Tu” markalı sərnişin təyyarələrinin istismarı tamamilə dayandırılıb, dünyanın aparıcı istehsalçılarından ən yeni sərnişin təyyarələrinin tədarükünə dair sazişlər imzalanıb. Hazırda AZAL-ın aviaparkına 14 “Airbus”, 4 ədəd “A319ceo”, 6 ədəd “A320ceo”, 2 ədəd “A340” təyyarəsi daxildir və 2023-cü ilin əvvəlindən 3 ədəd yeni nəsil “A320neo” təyyarəsi gətirilib.

Azərbaycanda 8 beynəlxalq aeroport fəaliyyət göstərir. Onlardan ikisi işğaldan azad olunmuş Füzuli və Zəngilanda son iki il ərzində tikilib. Doqquzuncu beynəlxalq aeroport işğaldan azad edilmiş Laçında olacaq və 2025-ci ildə istismara veriləcək. 2018-ci ildə Heydər Əliyev Beynəlxalq Aeroportu hava limanlarının auditi sahəsində ən nüfuzlu təşkilat olan “Skytrax World Airport Awards” tərəfindən maksimal “5 Ulduz” statusuna layiq görülüb. Ölkəmiz ildə 500 min tondan çox yük dövriyyəsi ilə regionda ən iri hava donanmalarından birinə malikdir.

## hava nəqliyyatı ilə sərnişindaşımalardan gəlirlər






## Dəniz nəqliyyatı

**Azərbaycan tərkibində 53 gəmi, o cümlədən 22 tanker, 13 bərə, 14 universal quru yük gəmisi, Ro-Ro tipli 2 gəmi, Ro-Pax tipli 2 gəmi olmaqla, Xəzər dənizində ən böyük ticarət donanmasına sahibdir.**

**2013-cü ildə Xəzər Dəniz Gəmiçiliyi və SOCAR-ın Xəzər Dəniz Neft Donanmasının birləşdirilməsi və yenidən təşkili nəticəsində "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC yaradılıb. Hazırda QSC-nin tərkibinə nəqliyyat donanması ilə yanaşı, ixtisaslaşdırılmış donanma və gəmi təmiri zavodları daxildir. İxtisaslaşdırılmış donanmanın tərkibində isə 210 gəmi var.**

**2003-cü ildən donanmanın genişmiqyaslı yenilənmə prosesini həyata keçirən QSC müxtəlif tipli, o cümlədən qeyri-xammal yüklərin daşınması üçün 30 yeni gəmi əldə edib.**





## dəniz nəqliyyatı ilə daşımalardan gəlirlər







2013-cü ildə istehsal gücü 25 min ton metal konstruksiya olan Bakı gəmiqayırma zavodu istifadəyə verilib. Fəaliyyət göstərdiyi 10 il ərzində zavodda 10 gəmi inşa olunub, 170-ə yaxın gəmi təmir edilib və ya modernləşdirilib.



## Metropoliten

### sərnişindaşımaların həcmi




2003-2022-ci illərdə 7 yeni stansiya tikilib, daha 1 depo istifadəyə verilib. Hazırda Bakı Metropolitenində yeni qatarların sayı 23-ə, vaqonların sayı isə 115-ə çatdırılıb. 2015-ci ildən bu günə qədər ən müasir standartlara cavab verən yeni tipli 95 vaqon alınıb.



## informasiya və rabitə sektorunun gəlirləri




2023-cü ildə Azərbaycan “Speedtest Global Index” reytinqində mobil internetin sürətinə görə dünyanın 140 ölkəsi arasında 54-cü yeri tutub.

## ATS-lərin sayı






# İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI

**mobil rabitə abonentlərinin sayı**

**İnternet şəbəkəsi istifadəçilərinin sayı**






## hər 100 nəfərə düşən internet istifadəçilərinin sayı

Azərbaycan əhalisinin demək olar ki, 88 faizi internetdən istifadə edir. Eyni zamanda, 2022-ci ilin sonuna qədər dünya üzrə Ümumdünya Şəbəkəsi ilə əhatə olunma göstəricisi təxminən 65 faizə çatıb.












# İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI

Azərbaycanda sabit genişzolaqlı internet istifadəçilərinin təxminən 70 faizi ADSL texnologiyası ilə şəbəkəyə qoşulur. Fiber-optik kabel bağlantısına qoşulma dərəcəsi 19 faiz təşkil edir. Eyni zamanda, 3G və daha yüksək şəbəkələrlə əhatə olunma 97 faizdən çoxdur, dünya üzrə isə bu rəqəm orta hesabla 93 faiz təşkil edir.

2017-ci ildən “Onlayn Azərbaycan” layihəsinin həyata keçirilməsinə başlanılıb və bu layihə çərçivəsində mövcud ADSL avadanlıqlarının müasir IMS platforması ilə işləyən GPON avadanlıqları ilə əvəz edilməsi, köhnə mis magistral kabel infrastrukturunun optik kabellərlə əvəzlənməsi və optik paylama şəbəkəsinin qurulması işləri icra olunur. Məqsəd FTTH (Fiber to the Home) şəbəkəsindən istifadə etməklə, 2024-cü ilə qədər sabit genişzolaqlı internet abunəçilərinin sayını artırmaqdan və minimum 25 Mbit/s sürətlə işləyən genişzolaqlı internetlə tam əhatə olunmağa çatmaqdan ibarətdir.

## hər 100 nəfərə düşən kompüterlərin sayı






# Kosmos dövləti

2013-cü il fevralın 8-də Azərbaycan üçün həqiqətən tarixi hadisə baş verib - ölkə Fransız Qvianasında yerləşən Kuru kosmodromundan ilk telekommunikasiya peyki olan “Azerspace”i işə salmaqla, regionda ilk kosmos dövlətinə çevrilib. Azərbaycan 2014-cü il iyunun 30-da “Azersky” müşahidə peykini, 2018-ci il sentyabrın 28-də isə üçüncü peykini - “Azerspace-2”ni orbitə çıxarıb.

# “ASAN xidmət”

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində “ASAN xidmət” mərkəzləri yaradılıb. Bu mərkəzlər dövlət orqanları tərəfindən göstərilən vahid və əlaqələndirilmiş xidmətlər sahəsində inqilabi sıçrayışa çevrilib.
“ASAN xidmət” - Azərbaycanın dövlət qulluqçularının fəaliyyətinə kökündən yeni yanaşma formalaşdıran, vətəndaşlara göstərilən xidmətləri keyfiyyətcə yeni səviyyəyə qaldıran rəqəmsal keçidin bariz nümunəsidir.
Hazırda ASAN mərkəzləri tərəfindən əhaliyə göstərilən xidmətlərin sayı 360-dan çoxdur. Bu günə qədər “ASAN xidmət” mərkəzlərinə 8 milyon 640 mindən çox vətəndaşdan 61 milyondan artıq müraciət daxil olub.



# İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI

Bölgələrdə vətəndaşlara 10 səyyar “ASAN xidmət” avtobusu və səyyar “ASAN qatar” vasitəsilə xidmət göstərilməsi davam etdirilir. 2013-cü ilin iyun ayından etibarən 2,8 milyondan çox vətəndaşa səyyar formada xidmət göstərilib.

2015-ci ildə “ASAN xidmət” “Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi” kateqoriyasında “BMT Dövlət Qulluğu Mükafatı” və Britaniya Əməyin Mühafizəsi Şurasının “Dövlət xidmətlərinin həyata keçirilməsinin təşkilində təhlükəsiz əmək şəraitinin qurulması” mükafatına layiq görülüb.

2016-cı il dekabrın 28-də Bakıda ilk “ASAN Kommunal” mərkəzi açılıb və bu gün onların sayı artıq üçə çatıb.






## Elektron hökumət

2012-ci il aprelin 25-də "Elektron hökumət" internet portalı fəaliyyətə başlayıb. Bu layihə çərçivəsində mərhələlərlə 12-si əhali, 8-i isə biznes sektoru üçün nəzərdə tutulan 20 əsas elektron xidmət tətbiq olunub.
2020-ci ildə Azərbaycan "Elektron Hökumətin İnkişaf İndeksi"nə görə dünyanın 193 ölkəsi arasında 70-ci yeri tutub və okeanlara çıxışı olmayan inkişaf etməkdə olan ölkələr arasında ilk üçlükdə yer alıb. Hazırda "e-gov" portalı vasitəsilə 41 mərkəzi hakimiyyət orqanı Hökumət tərəfindən təsdiqlənmiş 426 elektron xidmətdən 226-nı təqdim edir.
"Elektron məhkəmə" sistemi yaradılıb, məhkəmə prosesi videokonfrans vasitəsilə həyata keçirilir. Qəbul edilmiş məhkəmə qərarları elektron formada dərc olunur.
2020-ci ildə Azərbaycanın Ədliyyə Nazirliyi ödənişsiz "Mobil Notariat" tətbiqini istifadəyə verib.
Elektron gömrük bəyannaməsi və elektron gömrük bildirişləri sistemi tətbiq olunub, "e-customs" portalı istifadəyə verilib.
2022-ci il dekabrın 2-də qiymətli kağızların elektron emissiyası tətbiq edilib.
2023-cü il yanvarın 10-dan etibarən fərdi kredit tarixçəsinə onlayn giriş açıqdır.
Habelə "e-qrant" portalı fəaliyyət göstərir.
2022-ci ildə 26, 2023-cü ildə isə 20-dən çox dövlət qurumu "Hökumət buludu" sisteminə inteqrasiya edilib.

## Elektron imza

2011-ci ildə Azərbaycanda elektron imza tətbiq edilib, bu gün ölkədə iki növ rəqəmsal imza - SİMA Token və "ASAN İmza" xidmətləri fəaliyyət göstərir.



# İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI




## İrimiqyaslı tədbirlər

**2022-ci il mayın 26-29-da Bakıda “TEKNOFEST Azərbaycan” Kosmonavtika və Texnologiyalar Festivalı keçirilib.**

**2023-cü il oktyabrın 2-6-da Azərbaycan Respublikası Kosmik Agentliyinin (“Azərkosmos”) təşkilatçılığı ilə Beynəlxalq Astronavtika Federasiyası (IAF) ilə birgə 74-cü Bakı Beynəlxalq Astronavtika Konqresi keçirilib. Tədbirdə 101 ölkədən 5 mindən çox nümayəndə, o cümlədən 50-yə yaxın astronavt iştirak edib. Konqresin sərgi pavilyonunda isə 150 şirkət təmsil olunub.**



Son 20 il ərzində Azərbaycan BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə ərzaq təhlükəsizliyinin təmini, kənd təsərrüfatında müasir texnologiyaların və rəqəmsallaşmanın tətbiqi ilə baza hədəfləri həyata keçirib.
2000-ci ildə FAO-nun təşəbbüsü ilə dünyanın 185 dövləti "Minilliyin inkişaf hədəfləri" Bəyannaməsini qəbul edib. Bu sənədin əsas məqsədi 2015-ci ilədək planetdə yoxsulluğun və aclığın nəzərəçarpacaq dərəcədə azaldılmasıdır. Artıq 2013-cü ildə FAO tərəfindən təsdiqlənib ki, Azərbaycan ötən 13 il ərzində, 2015-ci ili gözləmədən yoxsulların sayının xeyli azaldılmasına və öz ərzaq təhlükəsizliyinin təmin edilməsinə nail olan lider ölkələr sırasındadır.

## Əkin sahələri

**ümumi**

1,22 mln ha — 2003

1,62 mln ha — 2022

**o cümlədən dənli bitkilər və paxlalılar**

776,3 min ha — 2003

985,7 min ha — 2022



# KƏND TƏSƏRRÜFATI

## meyvə və giləmeyvələr

| 2003 | 2022 |
|---|---|
| 88,4 min ha | 222,4 min ha |

## pambıq

| 2003 | 2022 |
|---|---|
| 66,8 min ha | 104,3 min ha |

## üzüm

| 2003 | 2022 |
|---|---|
| 7,7 min ha | 15,7 min ha |

FAO-nun rəhbərliyinin qərarına əsasən, Azərbaycan yoxsulluqla mübarizədə ən yüksək göstəricilərə nail olan dövlətlərdən biri kimi tanınıb. Azərbaycana “Minilliyin inkişaf hədəfləri”nə vaxtından əvvəl nail olmuş - 2015-ci ilədək yoxsulların sayını ikiqat azaltmış, həmçinin BMT-nin Ümumdünya Ərzaq Sammitinin daha sərt tövsiyələrinə uyğun olaraq 2015-ci ilədək yoxsulların sayının iki dəfə azaldılması məqsədinə çatmaq üçün aqrar kompleksin dayanıqlı inkişafını təmin edən ölkə kimi FAO-nun diplomu təqdim edilib.



## Məhsul istehsalı
*(Çoxillik əkin bitkiləri istisna olmaqla)*

### dənli bitkilər və paxlalılar

| | 2003 | 2022 |
|---|---|---|
| dənli bitkilər və paxlalılar | 2,1 mln ton | 3,2 mln ton |

### pambıq

| | 2003 | 2022 |
|---|---|---|
| pambıq | 99,6 min ton | 322,5 min ton |

### kartof

| | 2003 | 2022 |
|---|---|---|
| kartof | 769 min ton | 1074,3 min ton |



# KƏND TƏSƏRRÜFATI

## meyvə

572,1 min ton — 2003

1253,1 min ton — 2022

## tərəvəz

1 mln ton — 2003

1,8 mln ton — 2022

## üzüm

65 min ton — 2003

212,6 min ton — 2022

## ət (kəsilmiş çəkidə)

185,6 min ton — 2003

368,2 min ton — 2022



Azərbaycan hər iki hədəfə nail olan ölkələrin qısa siyahısına inamla daxil olub.

Son illər Azərbaycanda aparılan aqrar islahatlar kənd təsərrüfatının rəqəmsal transformasiyasına, qabaqcıl aqrotexnologiyaların, o cümlədən "yaşıl" metodikaların və becərilən torpağın hər hektarından məhsuldarlığı əhəmiyyətli dərəcədə artırmağa imkan verən qənaətli suvarma sistemlərinin tətbiqinə yönəldilib.

Azərbaycanın aqrar sektorunun modernləşdirilməsi nəticəsində ərzaq idxalının əvəzlənməsi (taxıl məhsullarından başqa) sahəsində 80 faiz irəliləyiş əldə olunub, FAO bu göstəriciyə görə Azərbaycanı yüksək rifaha malik ölkələr siyahısına daxil edib.

Kənd Təsərrüfatı Nazirliyinin həyata keçirdiyi ən böyük layihələrindən biri "Elektron kənd təsərrüfatı" (EKTIS) avtomatlaşdırılmış informasiya sisteminin yaradılmasıdır. Bu çərçivədə fermerlərə becərilən məhsulların həcmi və strukturu, məhsul proqnozları, cari tələbat və təklif haqqında ətraflı məlumatlar verilir, onlara hazırkı mövsümdə ən perspektivli və sərfəli məhsulları seçməkdə kömək göstərilir. EKTIS 600 minə yaxın azərbaycanlı fermerin subsidiya alması sahəsində qayda yaradılması üzrə misilsiz rol oynayıb, bu prosesdə, o cümlədən gübrələrin və yanacağın tədarükündə nəzarəti gücləndirib və şəffaflığı təmin edib.

Bu gün Azərbaycan əhalisi zəruri ərzaq məhsullarının 80 faizindən çoxunu milli aqrar sektordan əldə edir, bu zaman yerli məhsullar ildən-ilə daha böyük həcmdə idxal analoqlarını sıxışdırıb çıxarır.



# KƏND TƏSƏRRÜFATI

## süd

1167,8
min ton

2264,7
min ton

2003 2022

## yumurta

681,9
mln ədəd

2018,1
mln ədəd

2003 2022

## iribuynuzlu mal-qara

2241,8
min baş

2618,1
min baş

2003 2022

## xırdabuynuzlu mal-qara

7280,1
min baş

7751,7
min baş

2003 2022



2022-ci ildə Azərbaycanda bütün un növləri ilə özünütəminat səviyyəsi 93,3 faiz, buğda ilə təminat isə 62 faiz olub. Bu gün Azərbaycan özünü meyvə, tərəvəz, bostan məhsulları və yumurta ilə yerli istehsal hesabına 100 faiz təmin edir. Ət və süd məhsulları üzrə özünütəminat 85-86 faiz səviyyəsindədir.
Hazırda Azərbaycanda 51 aqropark fəaliyyət göstərir.






# KƏND TƏSƏRRÜFATI

## kənd təsərrüfatı məhsulları istehsalı




## kənd təsərrüfatı məhsulları və təkrar emal məhsulları ixracı




2020-ci ildən etibarən kənd təsərrüfatı sahəsində fermerlərə subsidiyalar “Elektron kənd təsərrüfatı” (EKTIS) vasitəsilə verilir. Yeni dəstək mexanizminin formalaşması kənd təsərrüfatında hesabatlılığın, şəffaflığın təmin olunmasına və bu sahədə büdcə vəsaitlərindən səmərəli istifadəyə, fermerlər üçün müraciətlərin sadələşdirilməsinə və elektronlaşdırılmasına, onların hər hansı bir nöqtədən əlçatanlığına yönəldilib. Son 20 il ərzində kənd təsərrüfatında mexanikləşdirmə səviyyəsinin artırılması məqsədilə ölkəyə müasir maşınlar və avadanlıqlar gətirilib.



Milli muğam, milli klassik və instrumental ifa kimi musiqi janrlarına marağın artırılması, Beynəlxalq Muğam Mərkəzinin yaradılması, “Eurovision-2011” mahnı müsabiqəsində qələbə Azərbaycanda mədəniyyətin sürətli inkişaf tempinin və bu sahəyə dövlət dəstəyinin əyani göstəricisidir.

## muzeylərin sayı

| 2003 | 2022 |
| --- | --- |
| 159 | 240 |

## istirahət parklarının sayı

| 2003 | 2021 |
| --- | --- |
| 210 | 351 |

Son 20 ildə ölkədə turizmin inkişafı üzrə aparılan işlər, islahatlar, qəbul edilmiş Dövlət proqramları, turizm sənayesinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi nəticəsində Azərbaycanda bu sektor mühüm mərhələyə qədəm qoyub, ölkəmiz dünyada turizmin yeni tanınmış istiqamətlərindən birinə çevrilib.



# MƏDƏNİYYƏT VƏ TURİZM

## ölkəyə gələn turistlərin sayı

| 2003 | 2022 |
|---|---|
| 12,1 min | 1,6 mln |

## ÜDM-də turizmin xüsusi çəkisi

| 2003 | 2019 |
|---|---|
| 1%-dən az | 2,4% |

## mehmanxanaların və digər turizm obyektlərinin sayı

| 2003 | 2022 |
|---|---|
| 96 | 727 |

2016-cı ildə Azərbaycanda "ASAN Viza" sisteminin yaradılması ilə turistlərin ölkəyə gəlişi daha da asanlaşıb. Aeroportda viza alınması turizmin inkişafı üçün böyük stimul olub.

2013-cü ildə ölkəmizdə ilk iri müasir turizm kompleksi – "Şahdağ Qış-Yay Turizm Kompleksi" istifadəyə verilib. Onun ardınca "Tufandağ Qış-Yay Turizm Kompleksi" tikilib.



**dövlət büdcəsindən təhsilə ayrılan xərclər**




**İnternet şəbəkəsinə qoşulan məktəblərin payı**






# TƏHSİL VƏ SƏHİYYƏ

Son 20 il ərzində ölkəmizdə 3600 yeni məktəb, yəni, ölkənin bütün məktəb fondunun (4500-dən çox məktəb) 80 faizdən çoxu inşa edilib və təmir olunub. Təkcə son üç ildə ölkədə 275 yeni məktəb binası tikilib, qəzalı məktəb binalarının sayı isə 30 faiz azalaraq 654-ə düşüb.

## müəllimlərin orta aylıq əməkhaqları




## ali məktəblərdə təhsil alan tələbələrin sayı






## ölkədə təhsil alan əcnəbi tələbələrin sayı




**Bu illər ərzində gənclərin xaricdə təhsili ilə bağlı iki Dövlət Proqramı imzalanıb:**

- 2007-2015-ci illər üzrə bu Proqram çərçivəsində xarici ölkələrin nüfuzlu universitetlərinə 3558 təqaüd yeri ayrılıb;
- 2022-2026-cı illər üzrə ümumilikdə 2000 Azərbaycan vətəndaşının xaricdə təhsil alması nəzərdə tutulur.

2006-cı ildən Azərbaycan Respublikasının ali məktəbləri əsas istiqamətlərindən biri təhsil prosesində və idarəetmə strukturlarında müasir informasiya texnologiyalarının tətbiqi olan Bolonya prosesinə qoşulublar.



# TƏHSİL VƏ SƏHİYYƏ

Azərbaycanda səhiyyə sahəsində genişmiqyaslı islahatlar aparılır, müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə edilməklə, geniş rəqəmsal səhiyyə platformasına keçid həyata keçirilib. 2021-ci ildən ölkəmizdə icbari tibbi sığortanın tam tətbiqinə başlanılıb. Bu, əhaliyə göstərilən səhiyyə xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılmasına yönələn və həmrəylik prinsiplərinə əsaslanan sosial layihədir. 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19-a qarşı mübarizədə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycanın gördüyü işləri yüksək qiymətləndirib.

## dövlət büdcəsindən səhiyyəyə ayrılan xərclər




## orta ömür müddəti







DIAMED





**doğuş zamanı ana ölümlərinin səviyyəsi (promil ilə)**




**doğuş zamanı uşaq ölümlərinin səviyyəsi (promil ilə)**






Artıq üçüncü ildir ki, Azərbaycan Qarabağ regionunun işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı dirçəliş proqramı həyata keçirir.
2016-cı ilin aprelində işğalçılardan azad olunmuş Cocuq Mərcanlı kəndinin nümunəsi göstərdi ki, Azərbaycan işğalçıların tamamilə dağıtdıqları infrastrukturu qısa müddətdə sıfırdan bərpa etməyə və 30 il əvvəl buradan didərgin salınmış əhalinin qayıdışını təmin etməyə qadirdir. Dağıdılmış kənd və şəhərlərin yerində qısa müddətdə "Ağıllı kənd"lərin bünövrəsi qoyuldu, 2022-ci il isə azad edilmiş Zəngilanda salınmış ilk Ağalı "Ağıllı kənd"inə qayıdışın başlanğıc ili oldu.
2022-ci il noyabrın 16-da "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edildi.
2021-2023-cü illərdə Qarabağ və Şərqi Zəngəzurda layihələrin həyata keçirilməsinə 7 milyard dollar ayrılıb, 2024-cü ildə dövlət büdcəsindən bu məqsədlər üçün minimum daha 2,4 milyard dollar vəsait yönəldiləcək. 2022-ci il iyulun 19-dan bu günədək iki şəhərə (Laçın və Füzuli şəhərləri) və üç kəndə (Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış və Laçın rayonunun Zabux kəndləri) 4516 keçmiş məcburi köçkün qayıdıb, bu, 1134 ailə deməkdir.
Dövlət Proqramına əsasən, ilkin mərhələdə 100 yaşayış məntəqəsinin (8 şəhər, 8 qəsəbə və 84 kənd) bərpa edilməsi planlaşdırılır. İşğaldan azad edilmiş 8 şəhərin Baş planı hazırlanıb.
İşğaldan azad olunmuş ərazilərdə bərpa və tikinti işlərində, həmçinin dost xarici ölkələr fəal iştirak edir. 2023-cü il avqustun 23-də Özbəkistanın ayırdığı vəsait hesabına Füzuli şəhərində tikilən orta məktəb istifadəyə verilib, Qazaxıstanın vəsaiti hesabına inşa edilən uşaq musiqi məktəbinin tikintisi başa çatmaq üzrədir. Həmçinin Cəbrayıl rayonunun Soltanlı kəndində Macarıstan şirkəti tərəfindən və Ağdam rayonunun Qərvənd kəndində Slovakiya şirkəti tərəfindən



həyata keçirilən layihələr üzrə işlər sürətlə davam edir.
Qalan bütün infrastruktur və tikinti işləri Azərbaycanın büdcəsinin hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən aparılır. Paralel olaraq, Heydər Əliyev Fondu 10-dan çox məscidi yenidən tikir və ya əsaslı şəkildə bərpa edir.

## Sosial və infrastruktur layihələri üzrə

Torpaqların işğaldan azad edilməsindən keçən 3 il ərzində regionda genişmiqyaslı abadlıq və tikinti işləri aparılıb. Bunlar aşağıdakılardır:
*(25.12.2023 tarixinədək olan məlumatlar)*

- Füzuli və Laçın şəhərlərində, Zəngilan rayonunun Ağalı və Tərtər rayonunun Talış kəndlərində 5 məktəb binası istifadəyə verilib;
- Şuşa şəhərində 1 xəstəxananın tikintisinə başlanılıb.
- Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa, Laçın və Kəlbəcər rayonlarında İşğal və Qələbə muzey komplekslərinin (cəmi 8 kompleks) layihələndirilməsi üzrə işlər davam etdirilir;



- Turizmin inkişafı istiqamətində həyata keçirilən infrastruktur layihələri çərçivəsində 5 otel və konqres mərkəzi (Şuşada “Qarabağ” və “Xarıbülbül” otelləri, Şuşa Otel-Konqres Mərkəzi, Zəngilan Konqres Mərkəzi, Ağdam Konqres Mərkəzi) yenidən qurulub, bərpa edilib və istismara verilib;
- Füzulidə və Zəngilanda beynəlxalq aeroportlar istifadəyə verilib, Laçın rayonunda aeroportun tikintisi sürətlə davam edir;
- Ümumi uzunluğu 2138 kilometr olan 22 yol layihəsindən 7-nin tikintisi artıq icra olunub;
- Uzunluğu 47,1 kilometr olan Bərdə-Ağdam və 110,4 kilometrlik Horadiz-Ağbənd dəmir yolu xəttinin tikintisi davam etdirilir;
- Regionun enerji təchizatı sahəsində: 330 kilovolt gücündə 1 köməkçi stansiya, 110 kilovoltluq 11 köməkçi stansiya, 14 HES istismara buraxılıb, 709 kilometr uzunluğunda 14 elektrik ötürücü xətti istifadəyə verilib;
- 12 hidroelektrik stansiyanın tikintisi və ya bərpası davam etdirilir;



Təmir və bərpa işlərindən sonra Suqovuşan və Xaçınçay su anbarları istismara verilib.

Azad olunmuş ərazilərdə bu günədək 115 min hektardan çox sahə minalardan və partlamamış sursatlardan təmizlənib.
Hazırda Ağdam Sənaye Parkı, Cəbrayılda "Araz Vadisi İqtisadi Zonası" və Zəngilanda "DOST Aqropark" Azərbaycan-Türkiyə birgə müəssisəsi yaradılır. Ağdam Sənaye Parkında 12 müəssisə rezident və 3 müəssisə qeyri-rezident qismində qeydiyyatdan keçib. "Araz Vadisi İqtisadi Zonası"nda isə 2 müəssisə rezident, 1 müəssisə isə qeyri-rezident qismində qeydiyyata alınıb. Həmçinin azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların stimullaşdırılması üçün vergi, gömrük və digər güzəştlərdən istifadə ilə bağlı mexanizmlər yaradılıb. Azad olunmuş ərazilərdə məktəbəqədər və ümumtəhsil müəssisələri, Olimpiya İdman kompleksləri və universal idman zalları tikiləcək və istifadəyə veriləcək, poliklinikalar şəbəkəsi və ambulator məntəqələr yaradılacaq. Bununla yanaşı, bir neçə "ASAN xidmət" mərkəzi istifadəyə veriləcək, "Təhlükəsiz şəhər" xidməti təşkil olunacaq, DOST mərkəzlərinin 7 filialı açılacaq, həmçinin regionun əhalisi və əmək ehtiyatları üzrə rəqəmsal məlumat bazası yaradılacaq.
Beləliklə, işğaldan azad edilmiş ərazilərə böyük qayıdış prosesini haqlı olaraq təkcə son 20 ildə deyil, həmçinin Azərbaycan tarixində ümumilikdə və nəzərdə tutulmuş məqsədlər, onların dəyəri baxımından ən irimiqyaslı proqram sənədlərindən biri adlandırmaq olar.

**Azərbaycan son 20 ildə möhtəşəm dəyişikliklər yaşayıb və demək olar ki, misilsiz iqtisadi inkişaf yolu keçib. Şübhəsiz ki, əldə olunmuş nailiyyətlər qarşıdakı illərdə də İlham Əliyevin prezidentliyi ilə möhkəmlənəcək və artırılacaqdır.**




«HOME SWEET HOME»